**İmamat Qüdrət qızı MƏMMƏDOVA**
Qərbi Kaspi Universiteti, Politologiya, psixologiya və sosiologiya kafedrası, magistrant

E-mail: imamet.memmedova@mail.ru

# PSİXOLOGİYADA İDENTİKLİK ANLAYIŞI

**Xülasə**

Təqdim olunan məqalədə identiklik (şəxsiyyət, fərdilik) anlayışını tədqiq edərkən, onun insanın özünü dərk etməsi, həyatının mənasını başa düşməsi və öz potensialını kəşf etməsi, başqa sözlə, yaşadığı cəmiyyətdə özünü tapması üçün vacib olduğunu müəyyən etmişdir. Psixologiyada şəxsiyyət anlayışı insanların özünüdərketmələri üçün xüsusi önəm daşıyır. Onun formalaşması fərdi xüsusiyyətlər ilə sıx bağlıdır. Beləki, ətrafda baş verən proses və hadisələr hər bir insan üçün özünəməxsus məna və məzmun ifadə edir. İnsanlarda şəxsiyyətin hansı növünün tədqiq edilməsindən asılı olmayaraq, bu fərdlərin psixoloji vəziyyətini, onların fərqliliklərini, özünüməxsusluqlarını daha yaxşı öyrənməyə kömək edir. Fərdilik- insanların bir növ özlərini kəşf etməsidir.

Şəxsiyyətin təsnifatında xüsusilə sosial fərdilik anlayışı tədqiqatçıların maraq obyektinə çevrilimişdir. Şəxsiyyət, sosial fərdiliyin əsas obyekti hesab olunur. Şəxsiyyətin formalaşması, inkişafı bilavasitə onun sosial fərdiliyi ilə bağlıdır. Fərdi xüsusiyyətlər ilə sosial proseslər qarşılıqlı vəhdət halındadır. Sosial fırdiliyi öyrənən zaman sosial proseslər xüsusilə daha çox önəm kəsb edir. Məqalədə şəxsiyyətin mahiyyəti ilə bağlı məsələlərin öyrənilməsinə əsaslanaraq, aktual elmi ədəbiyyatlar əsasında mövzu təhlil edilmişdir.

**Açar sözlər:** fərdilik, şəxsiyyət, sosial fərdilik, rol, gender fərdiliyi, sosial proseslər, milli fərdilik, etnik fərdilik.

**UOT:** 159.9
**DOİ:** 10/54414/QDKX7471

**Giriş**

Məlumdur ki, fərdin şəxsiyyət kimi formalaşması, inkişaf etməsi şəxsin həyatında mühüm yer tutur. Sosial identiklik anlayışı şəxsiyyəti daha yaxsı tədqiq etməyə imkan verir. Sosial identiklik fərdin "mən anlayışına" uyğun gəlir. İdentiklik özünəməxsus, unikal, fərqli, rəngarəng olması ilə seçilən müvazinət halıdır. Cəmiyyətdə baş verən bütün sosial proseslər insanların sosial identikliyinə özünəməxsus şəkildə təsir edərək, şəxsin sosial kimliyini yaradır.

**Əsas hissə**

İdentiklik anlayışı şəxsiyyətin özünüdərk qabiliyyəti hesab olunur. Latın dilində "identitas", ingilis dilində "identity" kimi ifadə olunan identiklik anlayışı müasir dövrdə getdikcə daha çox maraq doğurur və tədqiq edilir. Müasir dövrdə xüsusilə psixologiya, sosiologiyanın, fəlsəfənin müxtəlif digər sahələrin maraq obyektinə çevrilmişdir.

Bu anlayış insanın özünü qavramasının, özünü dərk etməsinin, öz potensialını qiymətləndirməsinin, ümumiyyətlə yaşadığı sosial cəmiyyət ilə uyğunlaşma bacarığını ifadə edir. C.Lokka görə mənəviyyat və dini baxışlar identikliyi tamamlayan faktorlardır [1].

İdentikliyi təbii və süni olaraq iki yerə ayıra bilərik. Təbii identiklik fərdin özünəməxsusluğu ilə anadangəlmə keyfiyyət xüsusiyyətlərinin məcmusudur. Süni identiklik isə ətrafda gedən sosial proseslərin, ailə tərbiyəsinin, cəmiyyətin təsiri ilə yaranan keyfiyyət xüsusiyyətləri aiddir [1]. Xüsusilə insanlar arasında təbii və süni identiklərin bir-birindən fərqləndirilə bilinməməsi onlar arasında fikir ayrılığına gətirib çıxarır. Nəticədə, insanların dəyərlər anlayışının dəyişməsinə səbəb olur. Bu da bəşəriyyəti böhran vəziyyətinə gətirib çıxarır. Tədqiqatlar nəticəsində belə bir fikir yaranır ki, müasir nəzəriyyələrin bəziləri insanlar arasında təbii identiklik əvəzinə süni identiklik yaratmaq ilə məşğuldur. Yaranan vəziyyət nəticəsində təbii hadisə və prosesləri öyrənmək əvəzinə, stereotiplər və qondarma problemlərə əsaslanan faydasız məşğuliyyət meydana çıxır.

İdentiklik fərqli, özünəməxsus, unikal, təkrarsız, müxtəlifliyi ilə çoxluq içində seçilən

müvazinət halıdır [2]. Hər bir şəxs eyni bir hadisəyə fərqli reaksiya göstərə, fərqli cür qavraya bilir. Bunun ən böyük səbəbi identikliyin təyinedici parametridir. Şəxsiyyətin sosial kimliyi mənsub olduğu xüsusiyyətlərinə görə həyatının müxtəlif dövrlərində daxil olduğu qruplarda ona kim olduğunu göstərir. Sosial identikliyə əsaslanaraq, qrup üzvləri müəyyən edilir. Fərdin misal olaraq etnik, gender, dini, milli, sosial identikliyinə əsaslanaraq insanlar arasında fərqliklər üzə çıxır.

İdentikliyi tədqiq edənlər onun aşağıdakı kimi təsnifatını vermişlər. Məsələn, etnik, rəqəmsal, dini, süni, təbii və identiklik, gender, milli identiklik.

İdentikliyin öyrənilməsi, tədqiq edilməsi bir çox alimlərin diqqətini çəkmişdir. Bu sıraya biz Andreeva G.M, Antonova I.V, Belinskaya E.P, Berger P., Zakovorotnaya M.V, Kaçanov Yu.L, Pavlenko V.N və başqalarını aid edə bilərik.

İnsanın sosial identikliyi anlayışı ilk dəfə A.Taşfelin əsərlərində ortaya çıxdı, lakin bu anlayışa başqa müəlliflərin əsərlərində də rast gəlmək olar. Müasir əsərlərdə “sosial kimlik” anlayışı geniş şəkildə bizə təqdim olunur və digər anlayışlarla (kateqoriyalar, rollar, mənlik anlayışı, şəxsiyyət) qarşılıqlı münasibətdə nəzərdən keçirilir. Bu halda rol anlayışı sosial kimliyin fəaliyyət yolu kimi müəyyən edilir. Digər tərəfdən, sosial identiklik anlayışı tez-tez istifadə olunur, ümumi qəbul edilmiş terminləri tamamlayır, aydınlaşdırır və ya əvəz edir. Yuxarıdakı anlayışların sinonimi kimi işlənə bilir. Sosial kimliyin strukturu bir-biri ilə əlaqəli olan və müəyyən bir bütövlüyü təmsil edən sosial rolların məcmusudur.

İnsan, öz sosial kimliyini formalaşdırarkən, situasiyanın amillərini və şərtlərini bir-biri ilə əlaqələndirir və formalaşan sosial kimlik fərd üçün müəyyən dəyərə malik olur. Beləliklə, məsələn, bir qadın sosial rollar iyerarxiyasında eyni zamanda özünü həm qadın, həm ana, həm həyat yoldaşı, həm qız övladı, həm də işçi kimi təyin edir. Xüsusilə, qadınlarda hamiləlik və ya uşağın doğulması prosesləri onların sosial identikliyinə çox böyük təsir göstərir.

Klassik tərifdə sosial identiklik fərdin özünün sosial cəmiyyətə mənsubiyyəti haqqında biliklərindən və təsirlərindən irəli gələn fərdi “mən anlayışının” bir hissəsi hesab olunur. Doğulanda insanın şəxsiyyəti olmur [10]. İnsanın şəxsiyyətinin inkişaf etməsi, bilavasitə, onun başqa insanlarla olan qarşılıqlı əlaqəsi, cəmiyyətdə gedən proseslərin təsiri nəticəsində yaranır[2]. Sosiallaşma yalnız sosial şəxsin qrupa daxil olması demək deyil, fərdin sosial mühitlə qarşılıqlı əlaqəsi nəticəsində şəxsiyyət formalaşır və şəxsiyyət üçün dəyərli olan müəyyən rollar iyerarxiyası qurulur. Beləliklə, sosial ətraf aləm ilə qarşılıqlı əlaqənin qurulması fərdin özünüdərkinin əsas köməkçisidir. Fərd öz sosial identikliyinin əsasını qoyur. Ətraf aləm kimi burada ailənin, dostların, daxil olduğu müəyyən sosial qruplardakı insanların, yaşadığı mühitin, cəmiyyətin təsiri nəzərdə tutulur.

Ənənəvi olaraq psixologiyada “şəxsiyyət” termininin yaranması amerikalı psixoloq E.Eriksonun adı ilə bağlıdır. O, şəxsiyyəti- insanın daxili davamlılığı və sosial kimliyi kimi müəyyən etmişdir. E.Eriksonun nöqteyi-nəzərindən kimlik bir quruluş kimi, müəyyən edilmiş elementlərdən ibarətdir [5]. E.Erikson həmçinin, ruhi xəstələr üzərində apardığı tədqiqatlarda identiklə bağlı bir sıra nəticələrə gəlmişdir. O ilk dəfə öz həyatları ilə bağlı ümumiyyətlə təsəvvürlərini itirmiş şəxslərdə “identikliyin böhranı” ifadəsini işlətmişdir. E.Erikson fərdi identikliyin böhranını gənclərdə həyatlarında normal bir hal hesab edirdi. O belə fikirləşirdi ki, hər bir insan xüsusilə gənclik zamanında həyatda öz yerini tapmağa, müəyyən qədər özünü kəşf etməyə, özünütəsdiq yolunda böhran keçirir. E.Eriksona görə xüsusilə özünüdərk gənclik dövrü üçün çox böyük əhəmiyyət daşıyır. Bu dövrdə gənclər identiklik böhranından çıxa bilmədikdə onlarda qeyri-identiklik - “şəxsiyyətsizlik” yaranmağa başlayır [1]. Günümüzdə gənclər arasında yaşanan identiklik böhranı nəticədə onların intihar etmələrinin ən böyük səbəbidir [1].

S.Ştruker nəzəriyyəsinin mövqeyindən identikliyi sosial rollar ilə əlaqələndirmişdir. S.Ştrukerə görə, identiklik insanların sosial qarşılıqlı fəaliyyətində öz iştiraklarını başa düşmələrini əks etdirir [11]. Onun yanaşmasına görə şəxsiyyət, fərdin sosial mövqeləri ilə müəyyən edilmiş daxili roldan ibarətdir. Şəxsiyyət əvvəlcə formalaşmağa başlayır və daha sonra insanın davranışına təsir göstərir, nəticədə fərdin özündərki onun sosial kimliyinin əsasını qoyur.

Öz növbəsində N.L. İvanova iddia edir ki, “sosial kimlik fərdi kateqoriya kimi çıxış edir,

lakin sosial rol isə mövqe və ya statusla əlaqələndirilir [12].

Yu.L.Kaçanov göstərir ki, sosial kimlik fərdin ümumiləşdirilmiş, mənalı münasibətlərinin strukturuna daxil edilir. Sosial kimliyin "məna əmələ gətirən funksiyası" ona şəxsi əhəmiyyət verir. Subyektin sosial məkanın müxtəlif sahələrinə inteqrasiyası və müxtəlif ictimai münasibətlər sistemlərinin obyektiv uyğunsuzluğu insanın bəzi sosial kimlikləri qəbul edə bilməməsinə gətirib çıxarır. Eyni zamanda şəxsiyyətin inkişafı məsələsi mühüm olaraq qalır, çünki şəxsiyyət bütün həyat yolu boyu formalaşması davam edir. J. Marcia qeyd edir ki, identiklik insanın həyatı boyu şəxsiyyət kimi inkişaf edir, formalaşır, təsirlərə məruz qalır. Şəxsiyyətə nail olmağın iki yolu arasında fərq qoyur:

1.Özümüz haqqında bəzi məlumatların tədricən dərk edilməsi (ad, soyad, yaş);

Bu yol mənimsənilmiş və fərdi məlumatların əldə edilməsinə əsaslanır.

2. İnsanın necə olması ilə bağlı müstəqil qərar verməsi, özü ilə bağlı, şəxsi keyfiyyətləri ilə bağlı müəyyən bir fikirə gəlməsi, ən əsası özünüdərketməsi qurulmuş və ya əldə edilmiş yol hesab olunur. Bu yolda ətrafda baş verən hadisə, proseslərin daha çox təsiri olur. Nəticədə bu şəxsiyyətin formalaşmasına gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, sosial identiklik fenomeninin semantik mahiyyətin tanınması, insanın sosial kimliyinin faktiki məzmununun şüurlu olması barədə iddialar demək deyil. Bir çox müasir tədqiqatçılar sosial identikliyə təkcə şüur hadisəsi kimi deyil, həm də şüursuz psixikanın fenomeni kimi baxırlar.

Müasir xarici və yerli psixologiya elminin nümayəndələrinin identikliyin tədqiqinə dair baxılan yanaşmalarına, fikirlərinə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, bu yanaşmaların hər birində şəxsiyyətin öyrənilməsinə müxtəlif nöqteyi-nəzərdən baxılır. Baxılan nəzəri yanaşmalar ziddiyyət təşkil etmir, əksinə, bir-birini tamamlayır, identiklik fenomeninin müxtəlif aspektlərini nəzarə alaraq şəxsiyyət daha yaxşı tədqiq etməyə imkan verir. Şəxsiyyət, sosial identikliyin əsas obyekti kimi yalnız sosial şəraiti, sosial prosesləri və qrupun fikirlərini deyil, həmçinin, fərdi xüsusiyyətləri də nəzərə alır. Sosial identiklik nəticədə həm şəxsi kimliklə yəni, fərdi xüsusiyyətlərlə, həm də əsas olaraq sosial proseslərlə qarşılıqlı əlaqədədir [13]. Sosial və şəxsi identikliklərin bir-biri ilə ziddiyyət təşkil etmədiyi, əksinə insanın şəxsiyyətinin bir-birini tamamlayan elementləri olması ideyaları da sosial təmsilçilik nəzəriyyəsinin tərəfdarları üçün xarakterikdir. Beləliklə, tədqiqatçılar tərəfindən qəbul edilən, yayılan fikir müasir dövrümüzdə də sosial və şəxsi identikliyin insan kimliyinin ziddiyyətli komponentləri deyil, bir-birini tamamlayıcı, əlaqəli olması fikridir.

Həm fərqliliklərə, həm də oxşarlıqlara həm şəxsi identiklik səviyyəsində, həm də sosial identiklik səviyyəsində rast gəlmək mümkündür.

Öz növbəsində J.V.Ballou iddia edir ki, sosial identiklik müxtəlif sosial stereotiplərin seçimi prosesində formalaşan sosial eyniliyin məhsuludur [9]. L. Reid və K. Deaux tərəfindən aparılan araşdırmada isə belə bir fikir irəli sürülüb ki, sosial identikliyə təkcə fərdi təcrübənin deyil, həm də mədəniyyətdə gedən proseslərin, hadisələrin də çox böyük təsiri mövcuddur.

Sosial identiklik anlayışını daha ətraflı tədqiq etmək,öyrənmək üçün fərdin gender kimliyi xüsusilə qeyd edilməlidir. Gender identikliyi öz növbəsində kişinin kişi və ya qadının qadın cinsinə mənsubluğunu dərk etməsidir [4]. Gender identikliyi insanın özünüdərkinin bir aspektini ifadə edir ki, bu da insanın özünün spesifik gender xüsusiyyətlərinin və davranışlarının daşıyıcısı kimi təsvir edir [8].

Gender identikliyi sosial proseslərin məhsuludur. O, uşağın doğulması ilə, onun xarici cinsiyyət orqanının quruluşuna nəzərə alınması ilə, cinsi müəyyən edilməsi gender identikliyinin ilkin mərhələsi hesab olunur. Cəmiyyətdə mövcud olan standartlar əsasında uşağın öz gender kimliyi, rolu, davranışı, eləcə də özünə hörməti haqqında təsəvvürlər formalaşmağa başlayır [8]. Beləliklə gender identikliyi sosial identikliyin bir hissəsi kimi özünüdərketmə prosesini tamamlayır. Uşaqlarda gender identikliyinin formalaşmasında birbaşa ətrafdakıların, ailənin çox böyük təsiri vardır. Bu zaman onlarda öz cinsi identikliyinin dərk etmələri prosesini doğru qurmaq çox vacibdir.

Sosial proseslərin məhsulu kimi etnik identikliyin, milli identikliyin şəxsiyyət üzərində çox böyük təsirləri mövcuddur. Bu zaman etnik identiklik ilə milli identikliyi təhlili və tədqiqi zamanı onları fərləndirmək çox vacibdir. Etnik

identiklik fərdin hər hansı bir etnik birliyə özünü aid etməsinə əsaslanır. Etnik identiklik fərdə uşaqlıq zamanı ailəsinin, yaşadığı ətrafın mədəniyyətin təsiri daha çox olur. Milli identiklikdə isə fərd özünüdərk etməsi, duyması ilə müəyyən millətlə eyniləşdirərək, siyasi fəaliyyətə qoşulur. Milli identikliyin inkişaf etməsində fərdin xüsusilə yaşadığı dövlətlə bağlığı, əlaqəsi daha çox təsir göstərir.

Müasir dövrümüzdə rəqəmsal identiklik sosial şəbəkələrin, kütləvi informasiya vasitələrinin köməyi ilə fərd haqqında bizə geniş məlumat verir [1]. Nəticədə insanlar kütləvi informasiya vasitələri bir növ özünəməxsusluğunu, fərqliliyini göstərməsi ilə öz sosial kimliyini göstərir.

Fərqli şəxsiyyət növlərini nəzərə alaraq qeyd etmək lazımdır ki, sosial kimliyin funksiyaları məsələsində də ziddiyyətli fikirlər mövcuddur. Bununla belə, N.L. İvanova sosial identikliyin aşağıdakı funksiyalarını müəyyən edir: 1) oriyentasiya (dünyada öz yerini axtarmaq); 2) struktur (müəyyənliyin qorunması, determinizm nisbəti və qeyri-müəyyənliklər); 3) hədəf (uyğunlaşma, məqsəd); 4) ekzistensial (proqnozlaşdırma, öz mənəvi potensialı) [7]. Sosial kimlik strukturunun funksiyası yeni sosial şəraitə uyğunlaşmanı və əminliyin qorunmasını təmin etməkdir [6].

**Nəticə**

Beləliklə, insanın sosial şəxsiyyətinin öyrənilməsi məsələsi günümüz üçün aktual məsələlərdən biridir. Bir fenomen kimi sosial identiklik şəxsiyyətin dinamik tərkib hissəsidir. Buradan belə bir nəticə çıxır ki, şəxsiyyətin inkişafında sosial vəziyyəti ilə bağlı dəyişikliklər, ətrafda baş verən bütün proseslər- sosial identikliyin formalaşması üçün vacib şərtdir. İdentikliyin yaranmasında, fərdin inkişafında sosial vəziyyətinin təsiri nəticəsində insan psixikasında baş verən bütün keyfiyyət dəyişiklikləri onun əsasını təşkil edir. Bu prosesdə fərdin daxili inkişafının, şəxsi keyfiyyətlərinin təsiri danılmaz faktdır. Nəticədə istər sosial, xarici təsirlər, istərsə də fərdin öz daxili keyfiyyətlərinin birləşməsi ilə fərdin özünüdərketməsi onun sosial identikliyinin yaranmasının əsasını qoyur. İnsanın sosial kimliyinin strukturuna dörd komponent daxildir: sosial-rol, koqnitiv, dəyər-semantik və emosional.

Sosial identikliyin öyrənilməsi zamanı sosial-psixoloji xüsusiyyətləri qarşılıqlı vəhdət halında təhlil etmək lazımdır. Sosial identikliyin strukturu bir-biri ilə əlaqəli olan və müəyyən bir bütövlüyü təmsil edən sosial rolların məcmusudur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. İ. Zarqan "İnsan, identiklik və identifikasiya", Beynelxalq elmi konfrans toplusu
2. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Psixologiya. Bakı, 2009
3. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Sosial psixologiya. Bakı, 2003
4. Бендас, Т. В. Тендерная психология: Учебное пособи/ Т.В. Бендас. — СПб.: Питер, 2006.
5. Эриксон, Э. Детство и общество/ Э. Эриксон. - СПб.: Ленато; АСТ; Фонд «Университетская книга», 1996.
6. Иванова, Н.Л. Психологическая структура социальной идентичности. Дисс. ... д-ра психол. Наук: 19.00.04/ Иванова Наталья Львовна. - Яросавль, 2003.
7. Иванова, Н.Л., Румянцева, Т.В. Социальная идентичность: теория и практика / Н.Л. Иванова, Т.В. Румянцева //М., 2009
8. Клецина, И.С. Психология тендерных отношений: теория и практика / И.С. Клецина. - СПб.: Алетейя, 2004.
9. Ballow, J. V. The psychology of pregnancy. Reconciliation and resolution / J. V Ballow. — Michigan, 1998.
10. Mead, G.H. Mind, self, and society. From the Standpoint of a Social Behaviorist/ G.H. Mead - Chicago: Univ. press, 1946.
11. Stryker, S. Identity theory: Developments and extensions/ S. Stryker / Self and Identity. NY, 1986.
12. Tajfel, H. Social identity and intergroup relations/ H. Tajfel// Cambridge and Paris, 1982
13. Waterman, C (ed.) Identity in Adolescence: Processes and Contents/ C. Waterman - San-Francisco.

**Имамат Гудрат кызы МАМЕДОВА**
*Западно-Каспийский университет, кафедра педагогики, психологии и социологии, магистрант*
E-mail: imamet.memmedova@mail.ru

## ПОНЯТИЕ ИДЕНТИЧНОСТИ В ПСИХОЛОГИИ

**Резюме**

При изучении понятия идентичности в представленной статье было определено, что человеку важно понять себя, понять смысл своей жизни и раскрыть свой потенциал, иными словами, найти себя в обществе, в котором он живет. В психологии понятие идентичности имеет особое значение для самопонимания людей. Его формирование тесно связано с индивидуальными особенностями. Итак, процессы и события, происходящие вокруг, имеют уникальный смысл и содержание для каждого человека. Независимо от того, какой тип идентичности изучается у людей, он помогает лучше изучить психологическое состояние индивидов, их различия и индивидуальность. Идентичность - это способ самопознания людей.

В классификации идентичности объектом интереса исследователей стало прежде всего понятие социальной идентичности. Личность рассматривается как главный объект социальной идентичности. Формирование и развитие личности напрямую связано с ее социальной идентичностью. Социальная идентичность есть взаимное единство социальных процессов с индивидуальными особенностями. Социальные процессы особенно важны при изучении социальной идентичности. В статье на основе изучения вопросов, связанных с сущностью идентичности, проанализирована тема на основе актуальной научной литературы.

**Ключевые слова:** идентичность, личность, социальная идентичность, роль, гендерная идентичность, социальные процессы, национальная идентичность, этническая идентичность.

**İmamat Gudret MAMMADOVA**
*Western Caspian University, Department of Politology, Psychology and Sociology, undergraduate student*
Email: imamet.memmedova@mail.ru

## CONCEPT OF IDENTITY IN PSYCHOLOGY

**Summary**

While studying the concept of identity in the presented article, it was determined that it is important for a person to understand himself, the meaning of his life and discover his potential, in other words, find himself in the society in which he lives. In psychology, the concept of identity is of special importance for people's self-understanding. Its formation is closely related to individual characteristics. So, the processes and events happening around have a unique meaning and content for each person. Regardless of what type of identity is studied in people, it helps to better study the psychological state of individuals, their differences and individuality. Identity is a kind of self-discovery of people.

In the classification of identity, especially the concept of social identity has become an object of researchers' interest. Personality is considered the main object of social identity. Personality formation and development is directly related to its social identity. Social identity is a mutual unity of social processes with individual characteristics. Social processes are especially important when studying social identity. In the article, based on the study of issues related to the essence of identity, the topic was analyzed based on current scientific literature

**Keywords:** identity, personality, social identity, role, gender identity, social processes, national identity, ethnic identity.

**Daxil olub:** 02.07.2021
**Access date**